# ƏBƏDİYAŞAR LİDER


*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

9 may 2026-cı il №17 (9172) www.muallim.edu.az muallim@media.edu.az


**Ulu Öndər Heydər Əliyev 103**

# “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!”



**Heydər ƏLİYEV, Ümummilli Lider**

## “Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur”

**İlham ƏLİYEV, Müzəffər Ali Baş Komandan**

## “Xoşbəxt adamam ki, ATA vəsiyyətini yerinə yetirdim”



## “Mən öz müəllimlərimi həmişə xatırlayıram”

“...Mən hər dəfə Naxçıvana gedəndə müəllimlərimi mütləq tapıram, görüşürəm, söhbət edirəm. Təəssüflər olsun ki, mənə dərs deyən insanların, demək olar ki, hamısı dünyasını dəyişibdir. Ancaq bir müəllimim yaşayır... Adı da Lətif Hüseynzadədir...”.

“...Mən öz müəllimlərimi həmişə xatırlayıram. Bilirsiniz ki, mən böyük həyat yolu keçmişəm, yaşım da az deyildir. Çox şeylər, çox insanlar görmüşəm. Yadda qalanları da, qalmayanları da var... Amma sizə demək istəyirəm ki, ən yadda qalanlar, mənim üçün əziz adamlar Naxçıvandakı müəllimlərimdir. Onların adlarını indiyə qədər xatirimdə saxlayıram. Dil-ədəbiyyat müəllimim - Lətif Hüseynzadə... çox gözəl ədəbiyyat dərsi deyirdi...”.

## Heydər Əliyev və Azərbaycanda milli təhsilin inkişafı



Sivil dünyanın inkişafında təhsil sistemi həlledici rol oynayır. Xalqın intellektual potensialı, milli şüurun formalaşması və gələcək nəsillərin yetişdirilməsi birbaşa təhsilin səviyyəsindən asılıdır. Ulu Öndər Heydər Əliyevin təbirincə demiş olsaq, “Təhsil hər bir dövlətin, hər bir cəmiyyətin həyatının ən vacib sahəsidir... Təhsil sistemi milli əsaslar üzərində qurulmalı, xalqımızın milli-mənəvi dəyərlərinə uyğun olmalıdır”.

Bax səh.2

## Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyalarının işığında



Bax səh.3


**“Heydər Əliyev və müasir Azərbaycan gəncliyi”** Bax səh.5

**Ulu Öndər ölkəmizin ərazi bütövlüyünün bərpasını dövlət siyasətinin əsas prioriteti kimi müəyyənləşdirmişdir** Bax səh.5

**Xalqımızın əbədi iftixarı** Bax səh.6

**Heydər Əliyev adına Təhsil Qrantı üzrə BMU-da təhsil alan tələbələr təəssüratlarını bölüşüblər** Bax səh.6

# Heydər Əliyev və Azərbaycanda milli təhsilin inkişafı





## "Təhsil sistemi milli əsaslar üzərində qurulmalı..."

**Sivil dünyanın inkişafında təhsil sistemi həlledici rol oynayır. Xalqın intellektual potensialı, milli şüurun formalaşması və gələcək nəsillərin yetişdirilməsi birbaşa təhsilin səviyyəsindən asılıdır. Ulu Öndər Heydər Əliyevin təbirincə demiş olsaq, "Təhsil hər bir dövlətin, hər bir cəmiyyətin həyatının ən vacib sahəsidir... Təhsil sistemi milli əsaslar üzərində qurulmalı, xalqımızın milli-mənəvi dəyərlərinə uyğun olmalıdır". Azərbaycan təhsili yarandığı gündən inkişaf etmiş, zaman-zaman milli xüsusiyyətlərini inkişaf etdirmişdir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yeni mərhələyə qədəm qoymuşdur. Bu dövrdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində təhsil yalnız bilik verən sistem deyil, həm də milli kimliyin qorunması və inkişaf etdirilməsinin əsas vasitəsinə çevrilmişdir. Heydər Əliyev təhsili ölkənin gələcəyini müəyyən edən əsas amil kimi qiymətləndirirdi, bu sahəyə xüsusi diqqət və qayğı göstərilməsini qeyd edirdi: "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O milli məqsədlər, mənafelər əsasında qurulmalıdır". Heydər Əliyevin təşəbbüsü ilə görülən işlər Azərbaycanın intellektual potensialının güclənməsinə, yüksək ixtisaslı milli kadrların hazırlanmasına və təhsilin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinə səbəb olmuşdur. Bu baxımdan, Heydər Əliyevin təhsil siyasəti yalnız bir dövr üçün deyil, bütövlükdə müasir Azərbaycanın inkişaf konsepsiyasını əhatə edən strateji xətt kimi dəyərləndirilir.**

### Xatırlama

Azərbaycanda təhsil sisteminin formalaşdırılması həmişə ictimai düşüncənin mərkəsində olmuşdur. Bütün zamanlarda bu problem bu və ya digər dərəcədə aktuallıq kəsb etmiş, strateji addımların atılmasında əsas rolunu oynamışdır. Və nəticədə təhsil quruculuğu sahəsində tədbirlər həyata kecirilmişdir. Məlum olduğu kimi, Azərbaycan təhsili XX əsrin böyük bir hissəsində SSRİ-nin tərkibində fəaliyyət göstərən təhsil sistemi olaraq ümumittifaq modelinə uyğun şəkildə qurulmuşdu. Bu sistem müəyyən dərəcədə savadlılıq səviyyəsinin yüksəlməsinə xidmət etsə də, milli xüsusiyyətlərin və dəyərlərin qorunması baxımından ciddi məhdudiyyətlərlə üzləşmişdir.

Məlum olduğu kimi, sovet ideologiyası çərçivəsində təhsil, əsasən, vahid mərkəzdən idarə olunur, proqramlar və dərsliklər ittifaq səviyyəsində müəyyən edilirdi. Bu isə yerli xalqların tarixinin, ədəbiyyatının və mədəniyyətinin dərindən öyrənilməsini ikinci plana keçirirdi. Təhsilin Azərbaycan dilində mövcudluğuna baxmayaraq, ali və texniki təhsil müəssisələrində rus dili üstünlük təşkil edirdi. Nəticə olaraq yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında milli dil faktoru zəifləyirdi.

Bununla yanaşı, milli kadrların hazırlanması məsələsi də xüsusi aktuallıq kəsb edirdi. Bütün ixtisaslar üzrə kadr hazırlığında cətinliklər meydana çıxırdı. Xüsusilə Azərbaycandan olan gənclərin böyük sənaye, elm və idarəetmə sahələrində təmsil olunmasında məhdudiyyətlər baş verirdi.

Eyni zamanda, təhsil infrastrukturu baxımından da müəyyən çatışmazlıqlar mövcud idi. Regionlarda məktəblərin maddi-texniki bazasında zəiflik özünü göstərir, müasir avadanlıq və ixtisaslı müəllim çatışmazlığı hiss olunurdu. Bu isə təhsilin keyfiyyətinə birbaşa təsir göstərirdi və şəhər ilə kənd arasında fərqlərin yaranmasına səbəb olurdu.

Belə bir mürəkkəb və ziddiyyətli şəraitdə milli təhsilin inkişafı üçün məqsədyönlü və uzaqgörən siyasətə ehtiyac yaranmışdı. Məhz bu tarixi mərhələdə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsi böyük bir ictimai hadisəyə çevrildi və ölkəmizin həyatına həm iqtisadi, siyasi, həm də mədəni sahələrdə yeniliklər gətirdi. O, həmcinin təhsil sahəsində köklü dəyişikliklərin əsasını qoydu.

### Heydər Əliyevin təhsil siyasəti

1969-cu ildə Heydər Əliyev Azərbaycanın rəhbərliyinə gəldikdən sonra respublikanın ictimai-siyasi və iqtisadi həyatında olduğu kimi, təhsil sahəsində də mühüm dönüş baş verdi. 70-ci illərdə qəbul olunmuş qərarların icrası istiqamətində ciddi dəyişikliklər baş verdi. Respublikada orta məktəb şəbəkəsi genişləndirildi, əsaslı keyfiyyət dəyişikliyinə nail olundu. Həmçinin məktəblərin dərsliklərlə təminatı problemi həll edildi və 1978-ci ildən etibarən şagirdlərə dərsliklərin pulsuz verilməsinə başlanıldı.

Bu dövrdə respublikada yeni ümumtəhsil məktəblərinin tikintisi geniş vüsət aldı, mövcud məktəblərin maddi-texniki bazası əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı. Xüsusilə kənd və ucqar bölgələrdə məktəb şəbəkəsinin genişləndirilməsi təhsilə çıxış imkanlarını artırdı. Bu addımlar regionlararası təhsil fərqlərinin azalmasına və savadlılıq səviyyəsinin yüksəlməsinə şərait yaratdı.

Heydər Əliyevin təhsil siyasətində ali və orta ixtisas təhsilinin inkişafı xüsusi yer tuturdu. Bu məqsədlə yeni ali təhsil müəssisələri yaradıldı, mövcud universitet və institutların fəaliyyəti genişləndirildi. Eyni zamanda, sənaye və iqtisadiyyatın tələblərinə uyğun kadr hazırlığına üstünlük verildi. Bu yanaşma ölkənin gələcək inkişafı üçün zəruri olan peşəkar mütəxəssis bazasının formalaşmasına xidmət edirdi.

Xüsusi olaraq Ulu Öndəri düşündürən əsas məsələlərdən biri də azərbaycanlı gənclərin orduya hazırlanması və vətənin müdafiəsi naminə hərbi məktəblərə cəlb edilməsi idi. Onun təşəbbüsünün və uzaqgörənliyinin nəticəsi olaraq 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı. Hərbi məktəbdə yüzlərlə Azərbaycan vətəndaşı təhsil almağa başladı. Və bu uğurlu başlanğıc bu gün də müvəffəqiyyətlə davam etməkdədir.

Diqqətəlayiq məqamlardan biri də azərbaycanlı gənclərin keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi idi. Bu təşəbbüs nəticəsində minlərlə gənc Moskva, Leninqrad və digər böyük elmi mərkəzlərdə yüksək səviyyəli təhsil alaraq vətənə qayıdır, müxtəlif sahələrdə aparıcı mövqelər tuturdular. Bu isə milli kadr potensialının güclənməsinə və idarəetmədə yerli mütəxəssislərin rolunun artmasına səbəb oldu.

Bununla yanaşı, təhsilin məzmununa da xüsusi diqqət yetirilirdi. Azərbaycan dilinin və milli-mədəni dəyərlərin qorunması istiqamətində mühüm addımlar atılır, humanitar fənlərin tədrisinə daha geniş yer verilirdi. Bu, gənc nəslin milli ruhda formalaşmasına və öz kimliyini dərk etməsinə mühüm təsir göstərirdi.

Ümumilikdə, 1969-1982-ci illərdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda təhsil sistemi daha sistemli, əlçatan və milli maraqlara uyğun şəkildə inkişaf etməyə başladı. Bu dövr sonrakı mərhələlər üçün möhkəm təməl rolunu oynadı.

### Müstəqillik dövründə təhsil islahatları

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkənin bütün sahələrində olduğu kimi, təhsil sistemində də köklü dəyişikliklərin həyata keçirilməsi zərurəti yarandı. Sovet modelindən miras qalan təhsil sistemi yeni ictimai-siyasi reallıqlara cavab vermirdi və milli dövlət quruculuğu baxımından yenidən formalaşdırılmağa möhtac idi.

Bu mürəkkəb keçid dövründə təhsil sahəsində vahid strategiyanın müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edirdi. 1993-cü ildə hakimiyyətə qayıdan Heydər Əliyev təhsilin inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Onun rəhbərliyi ilə təhsil sisteminin milli əsaslar üzərində yenidən qurulmasına start verildi.

İlk növbədə, təhsilin hüquqi bazasının yaradılması istiqamətində mühüm addımlar atıldı. Yeni qanunlar və normativ sənədlər qəbul edilərək təhsil sisteminin fəaliyyəti müasir tələblərə uyğunlaşdırıldı. Bu sənədlər təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi və dünya standartlarına inteqrasiyası kimi əsas prinsipləri özündə ehtiva edirdi.

Müstəqillik dövründə həyata keçirilən islahatların mühüm istiqamətlərindən biri də milli-mənəvi dəyərlərin təhsil prosesinə inteqrasiyası idi. Odur ki, Azərbaycan tarixi, dili və ədəbiyyatının tədrisinə xüsusi diqqət yetirildi, dərsliklər yenidən işlənərək milli məzmunla zənginləşdirildi. Bu, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasına mühüm təsir göstərdi.

Eyni zamanda, beynəlxalq əməkdaşlıq sahəsində də əhəmiyyətli addımlar atıldı. Azərbaycan bir sıra beynəlxalq təhsil proqramlarına qoşuldu, xarici ölkələrlə tələbə və müəllim mübadiləsi genişləndirildi. Bu proses yerli təhsil sisteminin dünya təhsil məkanına inteqrasiyasına və qabaqcıl təcrübələrin mənimsənilməsinə şərait yaratdı.

Təhsil infrastrukturunun yenilənməsi də diqqət mərkəzində idi. Yeni məktəblərin tikintisi, mövcud təhsil müəssisələrinin təmiri və maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Bu, təhsilin keyfiyyətinin yüksəldilməsinə və daha əlçatan olmasına şərait yaratdı.

Beləliklə, müstəqilliyin ilk illərində üzləşilən çətinliklərə baxmayaraq, Heydər Əliyev tərəfindən müəyyənləşdirilən təhsil siyasəti Azərbaycanın milli təhsil sisteminin formalaşması və inkişafı üçün əsas oldu.

### Milli təhsilin inkişafında strateji addımlar

Azərbaycanın milli təhsil sisteminin formalaşdırılması və davamlı inkişafının təmin olunması üçün Heydər Əliyev tərəfindən müəyyənləşdirilən strateji istiqamətlər kompleks xarakter daşıyırdı. Bu siyasət yalnız cari problemlərin həllinə deyil, həm də uzunmüddətli perspektivdə ölkənin intellektual potensialının gücləndirilməsinə hesablanmışdı.

Ən mühüm addımlardan biri Azərbaycan dilinin təhsil sistemində aparıcı mövqeyinin möhkəmləndirilməsi oldu. Ana dilində tədrisin genişləndirilməsi yalnız pedaqoji məsələ deyil, həm də milli kimliyin qorunması və inkişafı baxımından strateji əhəmiyyət daşıyırdı. Bu siyasət nəticəsində Azərbaycan dili bütün təhsil pillələrində əsas ünsiyyət və tədris vasitəsinə çevrildi.

Digər mühüm istiqamət müasir təhsil standartlarının tətbiqi ilə bağlı idi. Heydər Əliyev milli standartların yaradılmasını dövlət quruculuğunun və müstəqilliyin möhkəmləndirilməsinin əsas istiqamətlərindən biri kimi qiymətləndirirdi. O, ölkədə vahid standartların tətbiqini vacib sayırdı. Qeyd edirdi ki, milli standartların yaradılması yalnız texniki məsələ deyil, həm də siyasi və ideoloji əhəmiyyət daşıyır. Bu standartlar ölkənin müstəqil inkişaf yolunu təmin edən əsas mexanizmlərdən biridir. Hər bir sahədə qəbul olunan standartlar xalqın milli-mənəvi dəyərlərinə, tarixinə və ənənələrinə uyğun olmalıdır. Həmçinin dünya təcrübəsi də nəzərə alınmalıdır. Xüsusilə təhsil sistemində milli kurikulumun formalaşdırılması prioritetlərdən idi. Ulu Öndərin çıxış və nitqlərində bu məsələ, xüsusilə təhsil, dil, iqtisadiyyat və idarəetmə sahələrində ön plana çəkilirdi.

Standartların yaradılması, tədris proqramlarının yenilənməsi, dərsliklərin müasir tələblərə uyğun hazırlanması və innovativ təlim metodlarının tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edirdi. Bu yanaşma şagird və tələbələrin yalnız nəzəri biliklərlə deyil, həm də praktik bacarıqlarla təmin olunmasına imkan yaratdı.

Təhsil infrastrukturunun inkişafı da strateji siyasətin ayrılmaz hissəsi idi. Yeni məktəblərin tikilməsi, mövcud təhsil müəssisələrinin əsaslı təmiri və onların müasir avadanlıqlarla təchiz olunması təhsil mühitinin yaxşılaşdırılmasına gətirib çıxardı. Xüsusilə informasiya-kommunikasiya texnologiyalarının tədris prosesinə tətbiqi təhsilin daha effektiv və interaktiv olmasını təmin etdi.

Bununla yanaşı, müəllim kadrlarının hazırlanması və peşəkarlıq səviyyəsinin artırılması məsələsi də diqqət mərkəzində saxlanılırdı. Ümummilli lider deyirdi ki, "Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram". O həmişə müəllim əməyini yüksək qiymətləndirir, onlara böyük hörmətlə yanaşır, təhsil işçilərinin maddi vəziyyətinin, rifahının yaxşılaşdırılmasının qayğısına qalırdı. Eyni zamanda, müəllimlərin ixtisasartırma kurslarına cəlb olunması, onların sosial vəziyyətinin yaxşılaşdırılması və cəmiyyətdə nüfuzunun artırılması istiqamətində tədbirlər həyata keçirilirdi. Bu isə keyfiyyətli təhsilin müəllim peçəkarlığının yüksək olması ilə bağlılığından irəli gəlirdi.

Strateji yanaşmanın digər vacib elementi təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması idi. Azərbaycan təhsil sisteminin qlobal təhsil məkanına inteqrasiyası üçün müxtəlif proqramlar həyata keçirilir, qabaqcıl ölkələrin təcrübəsi öyrənilərək tətbiq olunurdu. Bu isə ölkənin rəqabətqabiliyyətli insan kapitalının formalaşmasına mühüm töhfə verirdi.

Nəticə olaraq, həyata keçirilən bu strateji addımlar Azərbaycanın milli təhsil sisteminin müasir, çevik və dayanıqlı model əsasında inkişaf etməsinə zəmin yaratdı.

### Heydər Əliyev siyasətinin davamlılığı

Azərbaycanın milli təhsil strategiyası təkcə müəyyən bir dövrü əhatə etməmişdir. Ardıcıl və davamlı inkişaf edən bir xətti kimi formalaşmışdır. Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasət sonrakı mərhələdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş və yeni məzmunla zənginləşdirilmişdir. Onun fikrinə görə, Ulu Öndərin müəyyən etdiyi təhsil strategiyası Azərbaycanın uzunmüddətli inkişafına hesablanmışdır və müasir dövrün tələblərinə uyğun şəkildə yenilənərək həyata keçirilir. O, həmçinin vurğulayır ki, gənclərin milli ruhda, yüksək bilik və bacarıqlarla yetişdirilməsi Heydər Əliyev ideyalarının əsas tərkib hissəsidir və bu xətt ardıcıl şəkildə davam etdirilir.

Müasir dövrdə təhsil sahəsində həyata keçirilən islahatlar daha çox innovasiya, rəqəmsallaşma və qlobal inteqrasiya prinsiplərinə əsaslanır. Yeni texnologiyaların tədris prosesinə tətbiqi, elektron təhsil resurslarının yaradılması və distant təhsil imkanlarının genişləndirilməsi bu siyasətin mühüm istiqamətlərindən biridir. Bu yanaşma təhsilin əlçatanlığını artırmaqla yanaşı, onun keyfiyyətini də yüksəldir.

Son illərdə ölkədə məktəb tikintisi və əsaslı təmir layihələri geniş miqyas almışdır. Müasir standartlara cavab verən təhsil müəssisələrinin istifadəyə verilməsi şagirdlərin daha yaxşı şəraitdə təhsil almasına imkan yaradır. Bununla yanaşı, regionlarda təhsil infrastrukturunun inkişafı sosial bərabərliyin təmin olunmasına xidmət edir.

Ali təhsil sahəsində də mühüm dəyişikliklər müşahidə olunur. Azərbaycan universitetlərinin beynəlxalq reytinqlərdə yer alması, xarici ali təhsil müəssisələri ilə əməkdaşlığın genişlənməsi və ikili diplom proqramlarının tətbiqi ölkənin təhsil sisteminin qlobal rəqabət qabiliyyətini artırır.

Eyni zamanda, insan kapitalının inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən edilmişdir. Gənclərin xaricdə təhsil alması üçün dövlət proqramlarının həyata keçirilməsi, istedadlı tələbələrin dəstəklənməsi və elmi-tədqiqat fəaliyyətinin təşviqi bu istiqamətdə atılan mühüm addımlardır.

Heydər Əliyev tərəfindən müəyyənləşdirilən təhsil strategiyası bu gün də aktual olaraq qalır və müasir çağırışlara uyğun şəkildə inkişaf etdirilir. Bu davamlılıq Azərbaycanın təhsil sahəsində əldə etdiyi nailiyyətlərin əsasını təşkil edir və gələcək inkişaf üçün möhkəm zəmin yaradır.

Azərbaycanın milli təhsil sisteminin inkişaf tarixinə nəzər saldıqda aydın şəkildə görünür ki, bu sahədə əldə olunan uğurlar təsadüfi deyil, məqsədyönlü və uzaqgörən dövlət siyasətinin nəticəsidir. Bu siyasətin formalaşmasında və həyata keçirilməsində Ulu Öndər Heydər Əliyev müstəsna rol oynamışdır. Onun rəhbərliyi ilə təhsil sahəsində atılan addımlar Azərbaycanın intellektual potensialının güclənməsinə, milli kadrların yetişdirilməsinə və təhsilin müasir tələblərə uyğun inkişafına təkan vermişdir. Ən əsası isə təhsil milli kimliyin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından strateji sahə kimi qiymətləndirilmişdir.

Bu gün Azərbaycanın təhsil sistemi məhz həmin siyasətin davamı olaraq yeni mərhələyə qədəm qoymuşdur. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən islahatlar nəticəsində təhsil sahəsində mühüm nailiyyətlər əldə olunmuş, ölkənin beynəlxalq təhsil məkanında mövqeyi daha da möhkəmlənmişdir.

Müasir dövrün tələbləri - rəqəmsallaşma, qloballaşma və innovasiya təhsil sistemi qarşısında yeni vəzifələr qoysa da, Heydər Əliyevin müəyyən etdiyi strateji xətt bu çağırışlara cavab vermək üçün etibarlı əsas olaraq qalmaqdaır. Bu isə Azərbaycanın gələcək inkişafının bilik və təhsil üzərində qurulduğunu bir daha təsdiqləyir. Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti yalnız bir tarixi mərhələnin deyil, bütövlükdə Azərbaycanın davamlı inkişaf modelinin ayrılmaz hissəsidir. Bu irs bu gün də yaşayır və gələcək nəsillərin daha savadlı, dünyagörüşlü və vətənpərvər ruhda yetişməsinə xidmət edir.

**Ənvər ABBASOV,**
**Bakı Slavyan Universitetində rektorun məsləhətçisi,**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim**

# Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyalarının işığında

## "Ən yaxşı təqdimat" müsabiqəsinin qalibləri mükafatlandırılıblar

**Ümumi təhsil müəssisələrinin 9—11-ci sinif şagirdləri arasında keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsinin qaliblərinin mayın 7-də mükafatlandırılma mərasimi keçirilib.**





Müsabiqə ulu öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunub və onun zəngin siyasi irsinin, həyat və fəaliyyətinin gənc nəsil tərəfindən daha dərindən öyrənilməsinə xidmət edir.

Əvvəlcə Dövlət Himni səsləndirilib, ardınca Ulu Öndər Heydər Əliyev və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası sədrinin müavini, Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov "Ən yaxşı təqdimat" müsabiqəsinin 20 ildən artıqdır ki, Heydər Əliyev irsinin gənclərimiz arasında təbliğ edilməsində, öyrənilməsində xüsusi rol oynadığını vurğulayıb. Bildirib ki, Heydər Əliyevin siyasətini uğurla davam etdirən və Azərbaycan dövlətini böyük inkişaf mərhələsinə gətirib çatdıran Prezident İlham Əliyevin də gənclərimizə tövsiyəsi Ulu Öndərin vəsiyyətinə əməl edərək ən müasir biliklərə yiyələnməkdir.

Çıxış edən elm və təhsil naziri Emin Əmrullayev "Ən yaxşı təqdimat" müsabiqəsinin Azərbaycanın köklü, ənənəvi təhsil müsabiqələrindən birinə çevrildiyini söyləyib. Qeyd edib ki, müxtəlif istiqamətlər üzrə bir çox müsabiqələr keçirilsə də, bu müsabiqə öz mahiyyəti və Azərbaycanın gələcək nəslinin tərbiyəsindəki rolu ilə xüsusi əhəmiyyət daşıyır. Nazir bildirib ki, təhsil sisteminin qarşısında duran əsas məqsədlərdən biri şagirdlərə bilik və bacarıqlar qazandırmaqdırsa, digər mühüm məqsəd onların milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda formalaşdırılmasıdır. Yeni nəslin milli ideoloji mühitdə inkişafına töhfə vermək baxımından Ulu Öndərin irsinin öyrənilməsi olduqca vacibdir.




YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxışında gənclərin yalnız rəqəmsal texnologiya istifadəçisi deyil, eyni zamanda milli maraqları daim üstün tutan, yüksək mənəvi dəyərlərə malik, vətənpərvər şəxsiyyətlər kimi formalaşmalı olduqlarını vurğulayıb. Bildirib ki, ənənəvi xarakter almış "Ən yaxşı təqdimat" müsabiqəsi Heydər Əliyev irsinin gənc nəsil tərəfindən daha dərindən öyrənilməsi, milli dəyərlərimizə sadiq, vətənpərvər gəncliyin yetişməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Sonda qaliblərə diplomlar və hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, builki müsabiqədə ölkə üzrə 3181 şagird iştirak edib, 33 nəfər müsabiqənin qalibi olub. Onlardan 6 nəfər 1-ci, 11 nəfər 2-ci, 16 nəfər isə 3-cü yerə layiq görülüb.

Müsabiqə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyi, Heydər Əliyev Fondu, Yeni Azərbaycan Partiyası, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə keçirilib.

# Azərbaycan gəncliyi daha bacarıqlı və rəqabətədavamlıdır

**Mayın 5-də "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, YAP Gənclər Birliyi və Bakı Slavyan Universitetinin (BSU) birgə təşkilatçılığı ilə "Müasir Şəhərsalma Vizyonu: ənənə və innovasiyanın harmoniyası" rəqəmsal ideya müsabiqəsinin bağlanış mərasimi keçirilib.**








## Elm və təhsil naziri rəqəmsal ideya müsabiqəsinin bağlanış mərasimində iştirak edib



Tədbirdə əvvəlcə "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş videoçarx nümayiş olunub.

Açılış nitqi ilə çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva müsabiqəyə dair hesabat təqdim edib. Bildirib ki, bu il sayca 4-cü dəfə keçirilən müsabiqəyə respublikanın 65 inzibati ərazi vahidindən ümumilikdə 1418 müraciət daxil olub. Qeyd edib ki, müsabiqənin başlıca məqsədləri Prezident İlham Əliyevin gənclərin qarşısına qoyduğu strateji hədəflərə uyğun olaraq intellektual, innovativ düşüncəyə malik gənc liderlərin formalaşdırılmasına töhfə vermək, gəncləri şəhərsalma və memarlıq sahəsində tətbiq olunan müasir yanaşma və alətlərlə tanış etmək, o cümlədən cəmiyyətə faydalı texnoloji həllərin tətbiq olunmasını təşviq etməkdir.

Sonra müsabiqənin hesabat videoçarxı təqdim edilib.

Tədbirdə çıxış edən Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev bildirib ki, keçirilən müsabiqənin əsas məqsədi ənənəvi Azərbaycan memarlıq dəyərlərinin müasir şəhərsalma texnologiyaları ilə harmonik şəkildə birləşdirilməsidir. Burada rəqəmsal həllərin, 3D modelləşdirmənin və innovativ planlaşdırma metodlarının tətbiqi xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma şəhər mühitinin daha funksional, ekoloji və estetik baxımdan inkişafına şərait yaradır.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, artıq ənənə halını almış və innovativ ideyaların təşviqi üçün mühüm platforma olan rəqəmsal ideya müsabiqəsi gənclərimizin istər intellektual potensialının üzə çıxarılması, istər ölkənin ictimai-siyasi həyatında fəal iştirakı, istərsə də kommunikasiya bacarıqlarının artırılması baxımından böyük əhəmiyyət kəsb edir. Qeyd edib ki, burada təqdim olunan layihələr təsdiqləyir ki, Azərbaycan gəncliyi yüksək intellektə, geniş dünyagörüşünə və dövrün çağırışlara adekvat müasir düşüncə tərzinə malikdir.

Rəqəmsallaşma bu gün dünyanın inkişaf istiqamətlərini müəyyən edən əsas amillərdən biridir. Şəhərsalma və memarlıq sahəsində rəqəmsal texnologiyaların tətbiqi isə resurslardan daha səmərəli istifadə olunmasına və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir. Bu baxımdan, müsabiqə çərçivəsində irəli sürülən ideyalar gələcəkdə real layihələrə çevrilərək ölkəmizin inkişafına güclü təkan verə bilər.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev çıxışında bildirib ki, bu müsabiqə gənclərin innovativ potensialına göstərilən yüksək diqqətin və dövlətin gələcəyə baxışının real ifadəsidir. Qlobal səviyyədə gənclər artıq şəhərsalma gündəliyinin formalaşmasında əsas maraqlı tərəflərdən biri kimi çıxış edir. Onların ideyaları, yanaşmaları və texnoloji bacarıqları şəhərlərin gələcək inkişaf trayektoriyasını müəyyən edir.

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev rəqəmsal ideya müsabiqəsinin gənclərin intellektual inkişafı baxımından mühüm əhəmiyyətə malik olduğunu deyib. Əlavə edib ki, bugünkü Azərbaycan gəncliyi daha bacarıqlı və rəqabətədavamlıdır.

Emin Əmrullayev söyləyib ki, bir neçə gündən sonra ölkəmizdə keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyası Azərbaycan gəncliyi üçün öyrənmək, özünü qlobal arenada rəqabətədavamlı olduğunu nümayiş etdirmək üçün növbəti bir imkandır.

Elm və təhsil naziri qeyd edib ki, "Şəhərsalma və Memarlıq İli" çərçivəsində ali təhsil müəssisələrinin uğurlu nəticələrini uzun müddət ölkəmizin inkişafına təsir edən mühüm amil kimi xatırlayacağıq.

Gənclər və idman naziri Fərid Qayıbov öz növbəsində qeyd edib ki, sözügedən müsabiqə gənclərin innovativ düşüncəsini, texnoloji bacarıqlarını və komanda ruhunu inkişaf etdirmək baxımından olduqca əhəmiyyətlidir.

Nazir vurğulayıb ki, Prezident İlham Əliyev gənclərin intellektual və innovativ potensialının inkişafını prioritet istiqamətlərdən biri kimi müəyyən edib və bu sahədə ardıcıl dəstək siyasəti həyata keçirir.

Çıxışlardan sonra "Müasir Şəhərsalma Vizyonu: ənənə və innovasiyanın Harmoniyası" rəqəmsal ideya müsabiqəsinin qalibləri mükafatlandırılıblar.

Yekunda Bakı Slavyan Universitetinin tələbələrinin ifasında konsert proqramı təqdim olunub.

# Təhsil İnstitutuna akkreditasiya haqqında şəhadətnamə təqdim edilib

**Mayın 6-da Azərbaycan Respublikasının Təhsil İnstitutuna Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən akkreditasiya haqqında şəhadətnamə təqdim olunması ilə əlaqədar tədbir keçirilib.**




Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev, Təhsil İnstitutunun direktor səlahiyyətlərini müvəqqəti icra edən, elm və təhsil nazirinin müşaviri Elnur Əliyev, Akkreditasiya üzrə Ekspert şurasının üzvləri, eləcə də aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev akkreditasiyanın əhəmiyyətini vurğulayaraq elmi fəaliyyətin keyfiyyətinin artırılması, elmi araşdırmalar üçün yeni mövzuların seçilməsi, universitetlərdə akademik heyətin gəncləşməsi, innovativ yanaşmaların tətbiqinin vacibliyini qeyd edib. Nazir bildirib ki, elmi potensialdan və müasir texnologiyalardan səmərəli istifadə təhsil sahəsində davamlı inkişafı təmin edən əsas şərtlərdəndir.

## Elmi potensialdan və müasir texnologiyalardan səmərəli istifadə təhsil sahəsində davamlı inkişafı təmin edən əsas şərtlərdəndir

Sonra AAK sədri Famil Mustafayev ARTİ-nin akkreditasiya üçün müraciət etməsini yüksək qiymətləndirərək prosesin hüquqi və təşkilati əsasları barədə məlumat verib, onun elmi müəssisələrdə idarəetmənin və tədqiqatların səmərəliliyinin artırılmasında mühüm rol oynadığını diqqətə çatdırıb.

Tədbirdə vurğulanıb ki, ARTİ tərəfindən təqdim edilən Özünüqiymətləndirmə Hesabatının təhlili əsasında Ali Attestasiya Komissiyasının Rəyasət Heyəti institutun akkreditasiyadan keçməsi və ona müvafiq şəhadətnamənin verilməsi barədə qərar qəbul edib.

Tədbirin sonunda AAK sədri Famil Mustafayev ARTİ-nin akkreditasiya şəhadətnaməsini elm və təhsil naziri Emin Əmrullayevə təqdim edib.

# Sumqayıt Dövlət Universitetinin yeni rektoru kollektivə təqdim olunub

**Mayın 6-da Sumqayıt Dövlət Universitetinin (SDU) yeni təyin olunmuş rektoru Nurəli Yusifbəyli universitet kollektivinə təqdim edilib.**





Nurəli Yusifbəylinin SDU-ya rektor təyin olunması haqqında ölkə başçısının müvafiq Sərəncamını tədbir iştirakçılarının diqqətinə çatdıran elm və təhsil nazirinin müavini İdris İsayev rektoru təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

İdris İsayev çıxışında ölkədə təhsil sahəsində həyata keçirilən islahatlardan bəhs edərək bildirib ki, son illər ali təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, universitetlərin maddi-texniki bazasının gücləndirilməsi, elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi və rəqəmsallaşmanın tətbiqi istiqamətində mühüm addımlar atılır. Qeyd olunub ki, həyata keçirilən bu məqsədyönlü siyasət nəticəsində Azərbaycan ali təhsil müəssisələrinin rəqabət qabiliyyəti artır, gənclərin keyfiyyətli təhsilə çıxışı genişlənir və insan kapitalının inkişafı təmin olunur.

Çıxış edən rektor Nurəli Yusifbəyli göstərilən etimada görə təşəkkürünü bildirib, bu vəzifənin məsuliyyətini vurğulayıb.

Tədbirdə həmçinin Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Əminağa Sadıqov çıxış edərək yeni rektoru təbrik edib və ona uğurlar arzulayıb.

# Nazir müavini Macarıstanın Kənd Təsərrüfatı və Təbiət Elmləri Universitetinin prorektoru ilə görüşüb

**Mayın 5-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Macarıstanın Kənd Təsərrüfatı və Təbiət Elmləri Universitetinin prorektoru Zoltan Bujdoso ilə görüşüb.**

Görüş çərçivəsində sözügedən universitet ilə cari əməkdaşlıq və gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.



# Həsən Həsənli Ağdaşda vətəndaşları qəbul edəcək

**Elm və təhsil nazirinin müavini Həsən Həsənli 22 may tarixində Ağdaş şəhərində vətəndaşları qəbul edəcək.**

Qəbulda Ağdaş rayon sakinləri iştirak edə bilərlər.

Adı çəkilən rayonun sakinləri 20 may (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə "WhatsApp" vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

# Firudin Qurbanov Dəniz Akademiyasının tələbələri ilə görüşüb





**Elm və təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri ilə görüşüb.**

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan görüşdə akademiyanın rektoru vəzifəsini icra edən Eldar Qocayev giriş nitqi ilə çıxış edərək bu cür görüşlərin gənclərin dünyagörüşünün genişlənməsi və peşəkar inkişafı baxımından əhəmiyyətini vurğulayıb.

Nazir müavini Firudin Qurbanov çıxışında Heydər Əliyevin dövlət quruculuğu və təhsil siyasəti sahəsində fəaliyyətinə toxunub, müasir dövrdə gənclərin üzərinə düşən vəzifələrdən, informasiya savadlılığının və ayıq-sayıqlığın əhəmiyyətindən danışıb.

Görüş zamanı F.Qurbanov tələbələrin suallarını cavablandırıb, xaricdə təhsil imkanları, süni intellektin tədris prosesində rolu, dənizçilik ixtisasının perspektivləri və təhsil sisteminin qarşısında duran aktual məsələlərlə bağlı fikirlərini bölüşüb.

# Hərbi texnika və texnologiyalar gənclərdən daha yüksək hazırlıq tələb edir

## Nazir müavini "Sərhəd" hərbi-idman oyunlarının yekunu ilə bağlı keçirilmiş tədbirdə iştirak edib





**Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbində "Sərhəd" hərbi-idman oyunlarının başa çatması münasibətilə tədbir keçirilib.**



Tədbirdə iştirak edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında "Sərhəd" hərbi-idman oyunlarının gənclərdə vətəndaşlıq şüurunun, vətənpərvərlik hissinin və milli dəyərlərə bağlılığın formalaşdırılmasında mühüm rol oynadığını qeyd edib. Bildirib ki, hərbi-idman oyunları iştirakçıların fiziki hazırlığının, hərbi-tətbiqi bacarıqlarının, komanda ruhunun və şəxsi keyfiyyətlərinin inkişafına töhfə verir.

Nazir müavini vurğulayıb ki, müasir dövrdə sürətlə inkişaf edən hərbi texnika və texnologiyalar gənclərdən daha yüksək hazırlıq tələb edir. Bu baxımdan hərbi-idman oyunları gənclərə zəruri bilik, bacarıq və vərdişlərin aşılanmasında mühüm əhəmiyyət daşıyır.

Tədbirdə iştirak edən Dövlət Sərhəd Xidmətinin, Gənclər və İdman Nazirliyinin rəsmiləri də çıxışlarında qalib komandaları təbrik ediblər, hərbi-idman oyunlarının əhəmiyyətindən söz açıblar.

Qeyd edilib ki, respublikanın 36 rayonundan 181 məktəb üzrə 905 şagirdin cəlb olunduğu "Sərhəd" hərbi-idman oyunlarının ilk iki mərhələsinin yekunlarına görə 11 komanda final mərhələsində mübarizəsini davam etdirib.

"Sərhəd" hərbi-idman oyunlarının keçirildiyi günlərdə məktəblilər sərhədçilərin xidmət və məişət şəraiti ilə tanış olub, onlar üçün maraqlı ekskursiyalar, mədəni-kütləvi tədbirlər, bilik və idman yarışları təşkil edilib.

Final mərhələsinin yekunlarına görə Cəlilabad rayonunun "Musalı" komandası birinci, Qusar rayonunun "Zeyxur" komandası ikinci, Şəmkir rayonunun "Mübarizlər" komandası isə üçüncü yeri tutub.

Tədbirin yekununda qaliblərə mükafatlar, oyunlarda fəal iştirak etmiş komandalara isə həvəsləndirici hədiyyələr təqdim edilib.

# Apellyasiya Şurasının növbəti iclası keçirilib

**Mayın 7-də elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Apellyasiya Şurasının növbəti iclası keçirilib.**

İclasda Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Qarabağ Regional Təhsil İdarəsinin Maliyyə-iqtisadiyyat sektorunun aparıcı məsləhətçisi və Mil-Muğan Regional Təhsil İdarəsinin Maliyyə-iqtisadiyyat sektorunun məsləhətçisi vəzifəsinə namizəd Pərviz Aslanovun, Quba-Xaçmaz Regional Təhsil İdarəsinin Tədrisin keyfiyyəti sektorunun məsləhətçisi vəzifəsinə namizəd Kəmalə Musayevanın, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Ümumi təhsilin təşkili sektorunun böyük məsləhətçisi və Təhsilin keyfiyyətinə nəzarət sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizəd Ayşən Əhmədlinin, Quba-Xaçmaz Regional Təhsil İdarəsinin Xaçmaz rayonu üzrə təhsil sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizəd Aytac Babayevanın, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Ümumi təhsilin təşkili sektorunun böyük məsləhətçisi vəzifəsinə namizəd Günel Allahverdiyevanın şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, 1 şikayətin təmin edilməsi, 4 şikayətin qismən təmin edilməsi, 2 şikayətin təmin edilməməsi barədə Şura tərəfindən qərarlar qəbul olunub.

# Ulu Öndər Heydər Əliyevin 103 illik yubileyi qeyd edilib





**Mayın 8-də Yeni Azərbaycan Partiyası Nərimanov Rayon Təşkilatının Elm və Təhsil Nazirliyi ərazi üzrə ilk partiya təşkilatı tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə tədbir keçirilib.**

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Ulu Öndərin xatirəsinin hər il böyük ehtiramla anıldığını diqqətə çatdıran elm və təhsil nazirinin müavini Firudin Qurbanov Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda dövlət quruculuğu, müstəqilliyimizin bərpası və ölkəmizin dünya miqyasında tanınması baxımından misilsiz xidmətlərindən danışıb. Firudin Qurbanov Ulu Öndərin təhsil sahəsinə göstərdiyi yüksək diqqətin bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Tədbir çərçivəsində Elm və Təhsil Nazirliyinin YAP sıralarına üzv qəbul olunmaq istəyən əməkdaşlarının müraciətləri müsbət cavablandırılıb.

# "HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN GƏNCLİYİ"

## Elm və təhsil nazirinin müavini Firudin Qurbanov gənclər forumunda iştirak edib



**Mayın 8-də "Heydər Əliyev və müasir Azərbaycan gəncliyi" mövzusunda Gənclər Forumu təşkil olunub.**

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbir Gənclər və İdman Nazirliyinin, "ASAN xidmət"in və "Regional İnkişaf" İctimai Birliyinin təşkilatçılığı ilə baş tutub.

Tədbirdə gənclər və idman naziri Fərid Qayıbov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, "Regional İnkişaf" İctimai Birliyinin sədri Məhəmməd Abdullayev, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov çıxış edərək Ulu Öndərin zəngin dövlətçilik fəaliyyətindən, Azərbaycanın dirçəlişində və müstəqil dövlət kimi formalaşmasında oynadığı müstəsna rolundan danışıblar.



Gənclər və idman naziri Fərid Qayıbov çıxışında bildirib ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən gənclərə hər zaman xüsusi diqqət və qayğı göstərilib. Nazir qeyd edib ki, məhz Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildə Azərbaycan gənclərinin ilk forumu keçirilib, ötən əsrdə minlərlə gəncin xarici ölkələrdə təhsil almasına şərait yaradılıb. Əlavə edib ki, hazırda Azərbaycan gəncləri təkcə döyüş meydanında deyil, elm, təhsil, idman və digər sahələrdə də mühüm uğurlar əldə edir, dövlət qurumları tərəfindən onların inkişafına yönəlmiş layihələr həyata keçirilir.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov isə çıxışında Heydər Əliyevin müstəqilliyin qorunub saxlanılmasının gənclərin üzərinə düşən ən mühüm vəzifələrdən biri olduğunu hər zaman xüsusi vurğuladığını diqqətə çatdırıb. Nazir müavini bildirib ki, müasir texnoloji çağırışlar dövründə bu məsuliyyət daha da artır. Nazir müavini Heydər Əliyevin dövlətçilik tarixində müstəqil dövlətçiliyin simvollarından biri olduğunu qeyd edərək onun uzaqgörən siyasəti nəticəsində ölkənin iqtisadi əsaslarının formalaşdırıldığını və gənclərin təhsilinə, beynəlxalq təcrübə qazanmasına geniş imkanlar yaradıldığını deyib. Firudin Qurbanov həmçinin bildirib ki, bilik, bacarıq, yaradıcı yanaşma və komanda ilə işləmək qabiliyyəti müasir gənclər üçün əsas amillərdəndir və ölkənin inkişafında yaradıcı gənclərin rolu böyükdür.

Forumun ikinci hissəsində "Heydər Əliyevin dövlətçilik irsi və gənclər siyasəti" mövzusuna həsr olunan panel görüşdə gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Milli Məclisin Gənclər və idman komitəsinin sədr müavini Könül Nurullayeva və Heydər Əliyev Mərkəzinin Heydər Əliyev irsinin tədqiqi və elmi araşdırmalar departamentinin direktor müavini Rəna Məmmədova iştirak ediblər.

Panel çərçivəsində Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı dövlətçilik prinsipləri, gənclər siyasətinin institusional əsasları, təhsil və insan kapitalının inkişafı məsələləri müzakirə olunub. Eləcə də gənclərin dövlət idarəçiliyində və ictimai həyatda rolu, müasir dövrdə qarşıya çıxan yeni çağırışlar barədə fikir mübadiləsi aparılıb.

Forumda bu istiqamətdə həyata keçirilən silsilə tədbirlərlə bağlı və Ümummilli Lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətini əks etdirən videoçarxlar nümayiş olunub.

# Ulu Öndər ölkəmizin ərazi bütövlüyünün bərpasını dövlət siyasətinin əsas prioriteti kimi müəyyənləşdirmişdir

**Mayın 4-də Xankəndi şəhərində Yeni Azərbaycan Partiyası (YAP) və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Böyük Qayıdış: Heydər Əliyev ideyalarının təntənəsi" mövzusunda tədbir keçirilib.**






## Qarabağ Universitetində Heydər Əliyevin ideyalarına həsr olunan tədbir keçirilib

Əvvəlcə Qarabağ Universitetinin inzibati binasında Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb. Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Çıxış edən Qarabağ Universitetinin rektoru Şahin Bayramov vurğulayıb ki, bu gün müasir Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünü doğma Qarabağda, Xankəndi şəhərində qeyd etmək böyük rəmzi məna daşıyır və qürurverici hadisədir. O qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərin qazanılması və işğaldan azad olunmuş ərazilərimizin sürətlə dirçəldilməsi məhz Ulu Öndərin uzaqgörən siyasətinin təntənəsidir: "Doğma yurdlarımıza elm, təhsil və mədəni dəyərlərimizlə qayıdışın simvoluna çevrilən Qarabağ Universitetinin yaradılması və hazırda minlərlə gəncin burada ali təhsil alması məhz Heydər Əliyev ideyalarının uğurla reallaşdırılmasının bariz nümunəsidir".

"Qarabağ Universitetinin başlıca missiyası yalnız yüksəkixtisaslı kadrlar hazırlamaq deyil, eyni zamanda, Vətəninə, xalqına və dövlətinə bağlı, Heydər Əliyev ideyalarına və milli-mənəvi dəyərlərə sadiq gənclər yetişdirməkdir. Qarabağ Universitetində Ümummilli Liderimizin zəngin irsinin öyrənilməsi və təbliği daim diqqət mərkəzində saxlanılır. Əminik ki, Ulu Öndərin misilsiz ideyalarına bağlılıq gənclərimizin işıqlı gələcəyinə parlaq yol açacaq və gələcəyin peşəkar mütəxəssisləri kimi onların ölkənin və regionun inkişafına mühüm töhfələr verməsində müstəsna rol oynayacaq",- deyə rektor vurğulayıb.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bugünkü tədbirimizin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan, uzun illər işğal altında qaldıqdan sonra dövlət başçımızın qətiyyətli siyasəti, Müzəffər Ordumuzun şücaəti nəticəsində azad edilərək öz əzəli sahibinə qovuşan Xankəndi şəhərində keçirilməsi xüsusi tarixi, mənəvi və siyasi əhəmiyyətə malikdir: "Bu gün əziz xatirəsini böyük ehtiramla yad etdiyimiz Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin xilaskarı və qurucusu kimi müasir tariximizdə silinməz iz qoymuşdur. Ulu Öndər daim Qarabağın, o cümlədən Xankəndinin Azərbaycanın ayrılmaz hissəsi olduğunu qətiyyətlə bəyan etmiş, ölkəmizin ərazi bütövlüyünün bərpasını dövlət siyasətinin əsas prioriteti kimi müəyyənləşdirmişdir. Onun məqsədyönlü siyasəti nəticəsində Azərbaycan taleyüklü sınaqlardan uğurla çıxaraq müstəqil dövlət kimi davamlı inkişaf yoluna qədəm qoymuşdur. Azərbaycanın müstəqilliyi və dövlətçilik ənənələri möhkəmləndirilmiş, mənəvi dəyərlərimizin qorunması, azərbaycançılıq ideologiyasına əsaslanan milli həmrəyliyin gücləndirilməsi istiqamətində mühüm nailiyyətlər qazanılmış və bugünkü — müasir və qalib Azərbaycanın etibarlı bünövrəsi yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən Heydər Əliyev siyasətinin müasir dövrün çağırışlarına uyğun zənginləşdirilərək uğurla davam etdirilməsi nəticəsində Azərbaycan öz qüdrətini daha da artıraraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ölkəmiz 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq Zəfərə imza ataraq ərazi bütövlüyünü, 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində isə mütləq suverenliyini bərpa etmiş, Azərbaycan Bayrağı işğaldan azad edilmiş bütün ərazilərdə, o cümlədən Xankəndi şəhərində ucaldılmışdır".

YAP Sədrinin müavini vurğulayıb ki, Xankəndidə Qarabağ Universitetinin təsis olunması dövlət başçısının gələcəyə yönəlik aydın strateji baxışının bariz ifadəsidir: "Bu ali təhsil müəssisəsi bilik məkanı olmaqla yanaşı, həm də azad olunmuş torpaqlarda tarixi ədalətin bərpasının, intellektual potensiala əsaslanan mənəvi dəyərlərin və milli ruhun yüksəlişinin simvoludur. Prezident İlham Əliyevin vurğuladığı kimi, Qarabağ Universiteti regionun elm, təhsil və innovasiya mərkəzinə çevriləcək və gələcək inkişafın əsas dayaqlarından biri olacaqdır".

"Ümummilli Liderimizin xalqımıza siyasi mirası olan Yeni Azərbaycan Partiyası da dövlətimizin böyük quruculuq fəaliyyətinə yaxından dəstək verir. Partiyamız Böyük Qayıdış strategiyasının həyata keçirilməsində, azad olunmuş ərazilərdə sosial-iqtisadi və humanitar layihələrin təşviqində, xüsusilə gənclərin bu proseslərə cəlb olunmasında mühüm rol oynayır. Qarabağ Universiteti ilə əməkdaşlıq çərçivəsində maarifləndirici tədbirlərin keçirilməsi, tələbələrin inkişafına yönəlmiş layihələrin dəstəklənməsi isə dövlətçilik ideallarına sadiq, yüksək intellektual və mənəvi keyfiyyətlərə malik gənc nəslin formalaşmasına xidmət edir", - deyə Tahir Budaqov əlavə edib.

YAP Sədrinin müavini qeyd edib ki, Ulu Öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi, təhsilin inkişafına da xüsusi önəm vermiş, istər SSRİ dövründə, istərsə də müstəqillik illərində respublikamıza rəhbərlik etdiyi zaman milli kadr potensialının formalaşdırılmasını strateji vəzifə kimi müəyyənləşdirərək bu istiqamətdə ardıcıl siyasət həyata keçirmişdir: "Bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva təhsilin inkişafını xüsusi diqqət mərkəzində saxlayırlar. Yeni məktəblər, universitetlər inşa edilir, mövcud infrastruktur müasirləşdirilir, gənclərin istər ölkə daxilində, istərsə də dünyanın aparıcı universitetlərində təhsil almaq imkanları genişləndirilir. Tarixi ənənələr, milli dəyərlər və müasir çağırışlara uyğun qurulan təhsil sistemində aparılan davamlı islahatlar gələcəyə istiqamətlənmiş addımlar kimi sosial-iqtisadi və humanitar inkişafa təkan verir. Dövlət başçısının siyasi iradəsi sayəsində fəaliyyətə başlayan Qarabağ Universiteti təkcə bir ali təhsil müəssisəsi deyil, eyni zamanda, Azərbaycan xalqının möhtəşəm Zəfərinin, quruculuq əzminin və intellektual inkişafının rəmzidir".

Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları üzrə xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov çıxışında bildirib ki, 2023-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Xankəndi şəhəri və ətraf ərazilər tam nəzarətə götürülərək ölkənin suverenliyi bərpa edilib. O qeyd edib ki, bu tarixi nailiyyət Azərbaycan dövlətinin gücünü, xalqın birliyini və qətiyyətli siyasi iradəni bir daha nümayiş etdirib.

Səbuhi Qəhrəmanov vurğulayıb ki, hazırda azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri sürətlə davam etdirilir.

S.Qəhrəmanov çıxışında qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik kursu bu gün də uğurla davam etdirilir və Azərbaycan regionda güclü mövqeyini daha da möhkəmləndirir: "Prezident İlham Əliyevin rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzur yaxın illərdə ölkənin ən inkişaf etmiş bölgələrindən birinə çevriləcək".

Qarabağ Universitetinin Humanitar və sosial elmlər fakültəsinin müəllimi Şamxal Əbilov çıxışında bildirib ki, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik kursunda Qarabağ məsələsi milli maraqların, suverenliyin və ərazi bütövlüyünün əsas istiqamətlərindən biri kimi xüsusi yer tuturdu. Onun sözlərinə görə, Ulu Öndər Qarabağ probleminə yalnız ərazi məsələsi kimi deyil, Azərbaycan dövlətçiliyinin və milli təhlükəsizliyin əsas elementi kimi yanaşırdı.

Ş.Əbilov qeyd edib ki, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkədə sabitliyin bərpası, dövlət institutlarının möhkəmləndirilməsi və nizami ordu quruculuğu baxımından həlledici dönüş nöqtəsi oldu. "Heydər Əliyevin çoxşaxəli siyasi fəaliyyəti Qarabağ məsələsində Azərbaycanın mövqeyinin beynəlxalq səviyyədə tanınmasına və gələcək qələbənin strateji əsaslarının formalaşmasına mühüm töhfə verdi", - deyə universitetin müəllimi söyləyib.

Çıxış edən Qarabağ Universitetinin Mühəndislik fakültəsinin 2-ci kurs tələbəsi, Qarabağda antiterror əməliyyatının iştirakçısı İlqar İsgəndərli bildirib ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbirdə çıxış etmək onun üçün böyük qürur və məsuliyyətdir. O qeyd edib ki, vaxtilə döyüş yollarının keçdiyi Xankəndi şəhərində bu gün tələbə olaraq təhsil almaq onun üçün sözlə ifadə olunmayacaq bir duyğudur. O, antiterror əməliyyatlarında iştirakını xatırladaraq Azərbaycan Ordusunun Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi tarixi Zəfərin hər bir əsgər üçün iftixar olduğunu bildirib: "Qarabağ Universitetində təhsil alan gənclər Ulu Öndərin müəyyən etdiyi dövlətçilik və azərbaycançılıq ideyaları əsasında Qarabağın gələcək inkişafına mühüm töhfə verəcəklər".

Sonra Qarabağ Universitetində Ümumi Orta Müvəffəqiyyət Göstəricisi ən yüksək olan bir qrup tələbəyə təşəkkürnamələr təqdim olunub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Daha sonra Qarabağ Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında konsert proqramı təqdim olunub.

# Xalqımızın əbədi iftixarı

**Bu yazının müəllifi keçmiş Azərbaycan Neft və Kimya İnstitutunda (ADNSU) təhsilini başa vurduqdan sonra XX əsrin 70-ci illərinin lap əvvəllərində Bakının qocaman neftçıxarma rayonu olan Lenin (indiki Sabunçu) rayonunda əmək fəaliyyətinə başlamışdır. 1980-ci illərin ortalarına qədər "Azneft" İstehsalat Birliyinin bu rayonda yerləşən müxtəlif müəssisələrində, o cümlədən, həmin əmək kollektivlərinin seçkili vəzifələrində çalışmışam. 1978-ci ildə 1200-dən çox partiya üzvünü birləşdirən "Leninneft" NQÇİ-nin partiya komitəsinin katibi seçildim.**



**"Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur".**

***"Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29.09.2022-ci il tarixli Sərəncamından***

1980-ci ilin 26 yanvar tarixində mənə məlumat verildi ki, növbəti gün Sov.İKP MK Siyası bürosu üzvlüyünə namizəd, Azərbaycan Kommunist Partiyasının birinci katibi, Azərbaycan SSR Ali Sovetinin 10-cu çağırış deputatlığa namizəd Heydər Əliyevin rayonun bir neçə müəssisə və təşkilatlarında, o cümlədən "Leninneft" NQÇİ-nin 9 nömrəli neft mədənində seçicilərlə görüşü keçiriləcəkdir.

Bu məlumatı alan kimi elə həmin gün NQÇİ-nin rəhbərləri ilə birlikdə 9 nömrəli neft mədənində olduq, müvafiq tövsiyələr verdik. Təyin olunan gün saat 08:30-da NQÇİ-nin rəhbərləri, mədənin sahə mühəndisləri və digər işçiləri Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizədimizlə görüşmək üçün müəssisənin əsas kontorunun binası qarşında yığışmışdıq. Bir saatdan sonra biz burada respublika rəhbərini qarşıladıq.

Həmin günlə bağlı təəssüratlarım o qədər zəngindir ki, onlardan bəzi epizodları bu yazıya əlavə etmək istərdim. Heydər Əliyev dispetçer pultunun fəaliyyəti ilə tanış olduqdan sonra yaxınlıqda yerləşən neft quyusuna yaxınlaşdı və onun istismar vəziyyəti və debiti ilə maraqlandı. Sahənin mühəndis-texniki işçiləri tərəfindən dərhal dəqiq və əsaslı şəkildə praktiki izahatlar verildi.

Bundan sonra mədənin qırmızı guşəsində seçicilərlə görüş keçirildi. Buraya 100-dən çox neftçi toplaşmışdı, onlar əllərində tədbirlə bağlı müxtəlif portret və plakatlarla gəlmişdilər. Rəyasət Heyətində Heydər Əliyev, eləcə də respublikanın bir sıra mərkəzi icra hakimiyyəti qurumların rəhbərləri, şəhər və rayon rəhbərliyi əyləşmişdi.

Neftçilərin çıxışları zamanı Heydər Əliyev onların arzu və istəklərini, seçici tapşırıqlarını maraqla dinləyir, həllini tapmamış problemlər barədə mənə əlavə suallar verirdi.

Valehedici və parlaq çıxışı iştirakçılar tərəfindən dəfələrlə gurultulu alqışlarla qarşılandı. O, çıxışında Azərbaycanın yüksək sosial-iqtisadi inkişaf templərindən, həmçinin rayon müəssisələrinin, o cümlədən qocaman neft-qazçıxarma idarəsinin əmək uğurlarından danışaraq, öz nitqində seçicilərin problemlərinin həlli və neftçilərin müraciətlərinin yerinə yetirilməsi istiqamətində konkret işlərin görülməsinə xüsusi diqqət yetirdi.

Burada qeyd etmək istəyirəm ki, Heydər Əliyevlə tez-tez görüşən və bilavasitə onun idarəçiliyində çalışan insanlar vurğulayırdılar ki, Ulu Öndər çıxışlarına və ya müxtəlif sahələr üzrə mütəxəssislərlə söhbət etməyə hazırlaşarkən onu maraqlandıran məsələ ilə bağlı çoxsaylı elmi və informasiya məlumatları nəzərdən keçirər, qeydlər edər və istənilən mütəxəssislə bərabər yüksək səviyyədə danışmağa hazır olardı. Bir sözlə, neftçilərlə seçkiqabağı görüşündə də onun məsələyə necə dərin və ciddi münasibət göstərməyinin, bu dahi insanın natiqlik məharətinin canlı şahidi olduq.

Tədbirin sonunda Heydər Əliyev toplantı iştirakçıları ilə hərarətlə sağollaşdı, onlara yeni uğurlar və qələbələr arzuladı. Mənə isə əlimi sıxaraq daha məhsuldar işləməyi, işdə daha çox inamlı və cəsarətli olmağı arzuladı.

Həmin görüşdən təxminən iki ay sonra Heydər Əliyevin məsləhəti ilə buraya gəlmiş keçmiş SSRİ Nazirlər Soveti Sədrinin müavini Leonid Smirnov burada oldu. L.Smirnov və onu müşayiət edən rəsmi şəxslər birlikdə mədəndə neft hasilatı prosesinin təşkili ilə yaxından tanış olmuş, texniki heyətlə onu maraqlandıran məsələləri, o cümlədən neft yataqlarının istismarının daha gec mərhələsində həyata keçirilən geoloji-texniki işlərin səmərəliliyinin artırılması yollarını müzakirə etdi. SSRİ Nazirlər Soveti sədrinin müavini bu səfərin nəticələri barədə Heydər Əliyevə ətraflı məlumat vermişdi.

İlk dəfə Heydər Əliyevlə görüşəndə 30 yaşım vardı. Mən həmin unudulmaz görüşdə Heydər Əliyevdən çox böyük mənəvi qida aldım.

Sonralar Heydər Əliyevin 1993-2003-cü illərdə dövlət başçısı olduğu dövrünün Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında 20 ildən artıq işlədiyim müddətdə bir sıra müşavirə və toplantılarda onun özünü və çıxışlarını tez-tez görmək və dinləmək mənə nəsib olmuşdur.

Belə tədbirlərin biri - 11 dekabr 1993-cü il tarixdə Heydər Əliyevin rəhbərliyi altında Ağcabədi rayonunda nazirlik, idarə və rayon rəhbərlərinin iştirakı ilə keçirilmiş zona müşavirəsi xatirəmdə silinməz izlər buraxmışdır. Bu müşavirə onun elə həmin ilin oktyabr ayında Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra demək olar ki, keçirilən ilk zona müşavirələrindən biri idi.

Axşama doğru, təxminən saat 18 radələrində Heydər Əliyevin maşını Ağcabədi Rayon İcra Hakimiyyətinin binası qarşısındakı meydana daxil oldu. Burada rayon sakinlərinin böyük bir qrupu toplaşmışdı və onlar Ulu Öndəri böyük sevinc və hədsiz coşğu ilə qarşıladılar. Rayon sakinlərinin xahişi və Heydər Əliyevin təkidi ilə elə burada - meydanda iştirakçılarla planlaşdırılmamış görüş keçirildi.

Toplantı iştirakçılarının onun ünvanına səsləndirdiyi xoş sözləri və arzuları dinləyərək o, respublikada mövcud olan gərgin hərbi-siyasi vəziyyəti ətraflı təhlil etdi, sonra diqqəti iqtisadi problemlərə yönəltdi, yaranmış vəziyyəti normalaşdırmaq üçün ölkə rəhbərliyinin nə kimi tədbirlər gördüyündən danışdı. Rayon sakinləri də öz növbəsində Heydər Əliyevi tam əmin etdilər ki, ölkə rəhbərliyini, onun siyasi xəttini dəstəkləyir, xalqın sıx birliyi və yekdilliyi uğrunda çıxış edirlər.

Nəzərdə tutulan müşavirə həmin görüşdən sonra İcra Hakimiyyətinin akt zalında keçirildi və demək olar ki, dörd saata yaxın davam etdi. Giriş sözündən sonra zona üzrə dəvət olunan rayon İcra Hakimiyyəti başçılarına söz verildi. Onlar Heydər Əliyevin cəbhəyanı bölgələrdə əhali, yerli qurumların rəhbər işçiləri, hərbiçilərlə görüşlərinin əhəmiyyətindən danışdılar və Azərbaycanda hazırkı ictimai-siyasi vəziyyət, müdafiənin təşkili, eləcə də qaçqın və köçkünlərə yardımın təşkili ilə əlaqədar problemlərə toxundular.

Dövlət başçısı Heydər Əliyev müşavirəyə yekun vuraraq, Azərbaycan tarixinin bu keçid dövründə ölkənin qarşısında duran aktual problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərdən danışdı. Onun çıxışının kifayət qədər sərt, təmkinli və yığcam olmasına baxmayaraq, hər kəlməsində tarixin bu mürəkkəb və çətin mərhələsində Azərbaycan xalqının və dövlətin taleyi ilə bağlı narahatlığı, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün məsuliyyəti hiss edilirdi. Bəli, o, doğma Azərbaycanı sonsuz məhəbbətlə sevir, onun potensialını hiss edir, bütün daxili və xarici siyasi prosesləri böyük uzaqgörənliklə tənzimləyirdi.

Ulu Öndər Heydər Əliyevin Şuşa və Laçının işğalının dördüncü ildönümü ilə əlaqədar həmin rayonların sakinlərinin bir qrupu ilə 1996-cı ildə Prezident Administrasiyasının binasında keçirilmiş görüşün hazırlanmasında və keçirilməsində iştirak etdim. İcra edilməli təşkilati məsələlər arasında, ilk növbədə, görüşə dəvət olunanların siyahısının tərtib edilməsi də vardı, çünki bu tədbirə qatılmaq istəyənlərin sayı həddən artıq çox idi. Üstəlik, siyahıda məcburi köçkünlərin məskunlaşdıqları bütün regionlar üzrə nümayəndələr nəzərdə tutulmalı idi. Çıxış edənlərin siyahısı, eləcə də çıxışların ardıcıllığının müəyyən edilməsinə də kifayət qədər çox vaxt sərf edildi, hətta görüşün gedişində dəvət olunanlar sırasından planlaşdırılmamış çıxışlar da oldu.

Təyin olunmuş gün və saatda bütün dəvət olunanlar Administrasiyanın iclas zalında toplaşmışdılar. Görüşün əvvəlində Ulu Öndər giriş sözü söylədi. Sonra faciənin bilavasitə iştirakçıları və şahidləri olan natiqlər ürək ağrısı ilə göz yaşlarını güclə saxlayaraq o günlərdə baş verən hadisələrdən, yaşadıqları faciəvi səhnələrdən danışdılar. Eyni zamanda, onların hamısı qəti əminliklərini bildirdilər ki, bu çətin vəzifəni - torpaqlarımızın işğaldan azad edilməsi və xalqa qaytarılmasını yalnız Heydər Əliyev həll edə bilər.

Tədbirin sonunda Ümummilli Lider yekun nitqi ilə çıxış etdi və çıxışının lap əvvəlində xüsusi vurğuladı ki, "Şuşa və Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin dördüncü ilinin tamam olduğu bir vaxtda bizim həmin hadisələrə daha doğru-düzgün qiymət vermək imkanımız keçən illərə nisbətən daha çoxdur. Bu da lazımdır, zəruridir. Çünki söhbət müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyündən, ölkəmiz, xalqımız üçün müqəddəs olan şəhərlərimizdən, kəndlərimizdən, dağlarımızdan, meşələrimizdən, çaylarımızdan, bulaqlarımızdan, tarixi abidələrimizdən gedir".

Ulu Öndərin çıxışının sonrakı hissələrində səsləndirdiyi bütün mülahizə və düşüncələr, əsasən, ona yönəlmişdi ki, hadisələrə obyektiv qiymət verilsin, Şuşa və Laçın faciəsinin səbəbkarlarının adları çəkilsin. Ən başlıcası isə xüsusi vurğulandı ki, "işlər sözlə yox, - sözlər çox eşidilib, - əməli işlə görülməlidir".

Görüşdə iştirak edənlərin hamısının Heydər Əliyevin Vətəni müdafiə etmək və qorumaq çağırışını necə böyük ilham və coşqun ilə qəbul etdiklərini qeyd etməliyəm: "Azərbaycanın hər bir yeri, nöqtəsi, guşəsi hər birimiz üçün - sizin üçün də, mənim üçün də Vətəndir. Belə də olmalıdır. Amma eyni zamanda, bir yer var ki, biz oranı qorumalı, saxlamalıyıq, - o, bizim üçün xüsusi vətəndir: Şuşa da, Laçın da, Ağdam da, Füzuli də, Zəngilan da və sair", - dahi Ümummilli Liderin bu kəlamları bütün iştirakçıları kövrəldirdi.

Şübhəsiz ki, bu çağırış ölkəmizin hər bir vətəndaşının sonrakı həyat və fəaliyyətində həlledici amillərdən birinə çevrildi. Və bu gün, həmin görüşdən 30 ildən çox vaxt keçəndən sonra həmin çağırışın hər kəlməsinin gücünü və əhəmiyyətini həmişəkindən daha çox dərk edirsən.

Bu gün fəxrlə deyirik ki, Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi 23 il ərzində Azərbaycanı qüdrətli bir dövlətə çevirdi, güclü ordu formalaşdırdı. Ordumuz hazırda dünyanın ən qüdrətli əlli ordusu sırasındadır. Onun qurduğu ordu Ali Baş Komandanın əmrini yüksək dəqiqliklə yerinə yetirərək 2020-ci ilin 44 günlük müharibəsində Ermənistan ordusunu darmadağın edib onu torpaqlarımızdan qovdu.

Bu gün qurur hissi ilə deyirik ki, Şuşa da, Laçın da, Ağdam da, Füzuli də, Zəngilan da, Qubadlı da, Cəbrayıl da, Kəlbəcər də işğaldan azaddır.

Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında xidmətləri o qədər böyükdür ki, nə qədər nəsillər dəyişsə də, onun haqqında həmişə millətin atası, Ümummilli Lider, görkəmli tarixli şəxsiyyət, dahi azərbaycanlı kimi danışacaqlar. Onu həmişə xatırlayacaqlar, filmlər çəkəcəklər, məqalələr və kitablar yazacaqlar, küçələr, məktəblər, meydanlar onun adını daşıyacaq.

Ulu Öndər Heydər Əliyevin irsi Azərbaycan xalqının milli sərvətidir. Milli sərvət isə əbədiyaşardır.

**Rövşən AĞAYEV,**
**Elm və Təhsil Nazirliyinin**
**Daxili nəzarət şöbəsinin**
**aparıcı mütəxəssisi**

# "Bu qrant sayəsində Azərbaycanı ömürlük qəlbimdə daşıyacağam"



**"Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı çərçivəsində 34 əcnəbi tələbə Bakı Mühəndislik Universitetində (BMU) təhsil alır. Prezident İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq icra edilən proqram ölkənin ali təhsil sisteminin beynəlmiləlləşdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü siyasətin tərkib hissəsi olmaqla yanaşı, Azərbaycanın beynəlxalq təhsil məkanında mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət edir. Qrant proqramı çərçivəsində təhsil alan tələbələr müxtəlif ixtisaslar üzrə bilik və bacarıqlarını artırmaq imkanı əldə edir, eyni zamanda ölkənin zəngin mədəni irsi və akademik mühiti ilə yaxından tanış olurlar. BMU-da yaradılmış müasir tədris infrastrukturu və beynəlxalq standartlara uyğun təhsil mühiti əcnəbi tələbələrin uğurlu akademik inkişafına geniş imkanlar açır. Proqram iştirakçıları universitetdə təşkil olunan tədris prosesi və yaradılmış şərait barədə təəssüratlarını bölüşüblər. "Azərbaycan müəllimi" yazını təqdim edir:**

## Heydər Əliyev adına Təhsil Qrantı üzrə BMU-da təhsil alan tələbələr təəssüratlarını bölüşüblər

**"Mənə yalnız təhsil almaq deyil, həm də yeni bir ölkə, yeni bir mədəniyyət kəşf etmək imkanı verdilər"**

- Mənim adım Janaina Cruzdur. Anqolanın Luanda şəhərindənəm. "Biznesin idarə edilməsi" ixtisası üzrə bakalavr tələbəsiyəm. "Heydər Əliyev Beynəlxalq Təhsil Qrantı" proqramının təşkilatçılarına təşəkkür etmək istəyirəm, çünki onlar mənə yalnız təhsil almaq fürsəti deyil, həm də yeni bir ölkə və yeni bir mədəniyyət kəşf etmək imkanı verdilər. Bu təqaüd mənə çətinlik çəkmədən təhsil almağa, yaxşı insan kimi yetişməyə, həmçinin yeni bir mədəniyyət və yeni bir ölkə tanımağa kömək etdi.

**"Bu qrant proqramı sayəsində Azərbaycanı ömürlük qəlbimdə daşıyacağam"**

- Hamıya salam, mənim adım Karan Shreesdir. Buraya çox gözəl bir ölkədən, Nepaldan gəlmişəm. Təhsil Qrantı proqramının qalibiyəm. "Kompüter mühəndisliyi" ixtisası üzrə bakalavr səviyyəsində təhsil alıram. Bu təqaüd mənim üçün sadəcə bir qapı açmadı. Sanki mənə bütöv bir dünyanı verdilər. Buradakı səyahətimin mənə ən çox təsir edən məqamlarından biri Bakı Mühəndislik Universitetində ingilis dilini öyrənmək oldu. Müəllimlərimiz çox nəzakətli və yardımsevərdirlər; onlar hər an yaranan anlaşılmazlıqda bizə yol göstərməyə hazırdırlar. Mən nepallı bir gəncəm, lakin bu qrant sayəsində Azərbaycanı ömürlük qəlbimdə daşıyacağam.

**"Azərbaycanda təhsil ala bilmək həqiqətən böyük bir fürsətdir"**

- Mənim adım Pemphero Mvansambodur. Malavidənəm. Bakı Mühəndislik Universitetində "İdarəetmədə informasiya sistemlərii" ixtisası üzrə magistr təhsili alıram. "Heydər Əliyev Beynəlxalq Təhsil Qrantı" proqramının tələbəsiyəm və bura gəlmək, bu möhtəşəm ölkədə, Azərbaycanda təhsil ala bilmək həqiqətən böyük bir fürsətdir. Bu cəmiyyətin bir hissəsi olmaq, yeni şeylər öyrənmək, öyrəndiklərimi öz ölkəmə apararaq fayda vermək və vətənimin qüdrətli olmasını təmin etmək çox heyranedicidir. Mənə verilən bu imkan üçün təşəkkür edirəm.




# AzMİU və ADA Universiteti dizayn sahəsində əməkdaşlıq edəcək

**Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) ilə ADA Universiteti arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Memorandum "Dizayn Həftəsi" çərçivəsində keçirilən görüşdə AzMUİ-nun rektoru, professor Gülçöhrə Məmmədova və ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev tərəfindən imzalanıb. Qeyd edək ki, bu sənəd daha əvvəl iki ali təhsil müəssisəsi arasında imzalanmış əməkdaşlıq müqavilələrinin davamı olaraq strateji tərəfdaşlığın yeni mərhələyə keçdiyini nümayiş etdirir.**

İmzalanan Memorandum AzMİU və ADA Universiteti arasında dizayn sahəsində təhsil, elmi-tədqiqat və yaradıcı fəaliyyət istiqamətlərində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Sənədə əsasən, tərəflər qrafik dizayn, media, mühit, sənaye və geyim dizaynı istiqamətlərində birgə layihələrin həyata keçirilməsi, tələbə və müəllim mübadiləsinin təşkili, elmi konfranslar, sərgilər və müsabiqələrin keçirilməsi sahəsində sıx əməkdaşlıq edəcəklər.

Bu kontekstdə AzMİU-nun dizayn sahəsində beynəlxalq nailiyyətləri də xüsusi diqqət çəkir. Belə ki, universitet 2026-cı ilin QS sahələr üzrə dünyanın ən yaxşı universitetlərinin reytinqində ilk dəfə yer alaraq dizayn sahəsində ölkə üzrə təmsil olunan yeganə, dünyada isə ən yaxşı 250 ali təhsil müəssisəsindən biri kimi çıxış edib. Bu göstərici AzMİU-da formalaşmış güclü akademik mühitin, yaradıcı yanaşmanın və müasir tədris modelinin beynəlxalq səviyyədə tanındığını təsdiqləyir və imzalanan Memorandumun əhəmiyyətini daha da artırır.

Eyni zamanda, inklüziv dizayn, vizual kommunikasiya və ictimai mühitin dizaynı üzrə ortaq təşəbbüslərin irəli sürülməsi, bu sahələrdə innovativ yanaşmaların tətbiqi və müasir dizayn düşüncəsinin inkişaf etdirilməsi də əməkdaşlığın əsas prioritet istiqamətləri sırasındadır.

Memorandum çərçivəsində süni intellekt, rəqəmsal dizayn və multimedia sahələrində birgə fəaliyyətlərin təşviqi, sənaye və kreativ sektorla inteqrasiyalı layihələrin həyata keçirilməsi, startap və innovasiya yönümlü təşəbbüslərin dəstəklənməsi xüsusi diqqət mərkəzində olacaq.

Sənəd həmçinin tərəflər arasında uzunmüddətli və sistemli əməkdaşlığın formalaşdırılmasına zəmin yaradır. Bu çərçivədə gələcəkdə birgə akademik proqramların hazırlanması, müasir dizayn yanaşmalarının tədris prosesinə inteqrasiyası, tələbələrin praktik bilik və bacarıqlarının artırılmasına yönəlmiş layihələrin icrası planlaşdırılır. Bununla yanaşı, beynəlxalq təcrübənin öyrənilməsi, qlobal dizayn trendlərinin tətbiqi və yaradıcı sənayelərlə ali təhsil müəssisələri arasında əlaqələrin gücləndirilməsi də nəzərdə tutulur.

Xüsusi vurğulanmalıdır ki, imzalanmış Anlaşma Memorandumu 2026-cı ilin 17-22 may tarixlərində Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ərəfəsində baş tutmaqla, tərəflər arasında akademik tərəfdaşlığın genişləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu əməkdaşlıq çərçivəsində şəhərsalma və memarlıq sahələrində konfransların, sərgilərin, seminarların, elmi görüşlərin, təlim və ustad dərslərinin təşkili, eləcə də birgə akademik proqram və kursların hazırlanması nəzərdə tutulur.

Qeyd edək ki, bu əməkdaşlıq həm tələbə və müəllim heyəti üçün yeni imkanlar açacaq, həm də ölkədə dizayn və yaradıcı sənayelər ekosisteminin inkişafına, universitet-sənaye və beynəlxalq tərəfdaşlıq modelinin daha da güclənməsinə mühüm töhfə verəcək.

# Gələcəyin mühəndisləri burada yetişir



## Türkiyə-Azərbaycan Universitetindən reportaj

**Azərbaycan və Türkiyə arasında mövcud olan strateji tərəfdaşlıq son illərdə yalnız siyasi və iqtisadi sahələrlə məhdudlaşmayaraq elm və təhsil istiqamətində də dərinləşməkdədir. Bu əməkdaşlığın bariz nümunələrindən biri kimi yaradılan Türkiyə—Azərbaycan Universiteti iki qardaş ölkənin ali təhsil ənənələrini və qabaqcıl təcrübələrini bir platformada birləşdirən yeni və innovativ model kimi çıxış edir. Universitetin əsas məqsədi yüksəkixtisaslı kadrların hazırlanması, beynəlxalq standartlara uyğun təhsil mühitinin formalaşdırılması və elmi-tədqiqat fəaliyyətinin inkişafına töhfə verməkdir. Elə Türkiyə-Azərbaycan Universitetinə təşkil olunan infoturun da əsas məqsədi KİV nümayəndələrinə ali təhsil müəssisəsinin fəaliyyəti, hədəfləri və təhsil imkanları barədə ətraflı məlumat vermək, həmçinin iştirakçıları mövcud və planlaşdırılan layihələrlə yaxından tanış etmək idi. Tədbirdə Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Hikmət Əlizadə, KİV nümayəndələri, təhsil mütəxəssisləri, Türkiyə-Azərbaycan Universitetinin professor-müəllim heyəti, ixtisas rəhbərləri iştirak edirdilər.**

### Güclü akademik baza, güclü tərəfdaşlıq…

Tədbiri Türkiyə-Azərbaycan Universitetinin (TAU) professoru Ümran Uygun açaraq iki qardaş ölkənin strateji əməkdaşlığından doğan ali təhsil müəssisəsinin tarixi, yaradılma məqsədi və fəaliyyəti haqqında geniş məlumat verib. Bildirib ki, Türkiyə-Azərbaycan Universitetinin yaradılmasında məqsəd iki ölkənin qardaşlığını simvolizə edən ortaq akademik platformanın yaradılması, beynəlxalq təhsil standartlarına uyğunluq, əmək bazarının tələblərinə cavab verən innovativ təhsilin tədrisidir.

Elm və sənayenin vəhdəti olan Türkiyə-Azərbaycan Universitetinin ixtisaslaşma və proqramları barədə məlumat verən çıxışçı qeyd edib ki, onların hər biri Türkiyə universitetlərinin zəngin akademik təcrübəsi əsasında həyata keçirilir. Dərslər ən müasir laboratoriyalarda keçilir.







### "TAU-da 174 tələbə təhsil alır"

Sonra Türkiyə-Azərbaycan Universitetinin Tədris şöbəsinin müdiri Günel Teymurova təqdimatla çıxış edib. Qeyd olunub ki, Türkiyə ilə Azərbaycan arasında elm və texnologiya sahəsində əməkdaşlığı yeni səviyyəyə çatdıracaq Türkiyə-Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu 2024-cü il fevralın 19-da Ankarada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə imzalanıb. Memorandumu Türkiyənin Ali Təhsil Şurasının rəhbəri Erol Özvar və Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev imzalayıblar.

Günel Teymurova bildirib ki, Türkiyə-Azərbaycan Universiteti "çətir universitet" modelidir: "Azərbaycan tərəfi torpaq, bina, laboratoriya, avadanlıq kimi maliyyə və texniki imkanları təmin edir. Türkiyə tərəfi tədrisin keyfiyyəti, proqramların təşkili, 8 semestrlik tədris planının icrası ilə məşğuldur. Bu ali təhsil müəssisəsi Türkiyənin 3 aparıcı universitetinin proqramlarını özündə birləşdirir. Burada tədris "Kompüter mühəndisliyi" ixtisasında Orta Doğu Texniki Universitetinin (ODTÜ), "Sənaye mühəndisliyi" ixtisasında İstanbul Texniki Universitetinin (İTÜ), "Qida mühəndisliyi" ixtisasında isə Hacettepe Universitetinin tədris proqramlarına uyğun aparılır. TAU-nun Azərbaycan tərəfdən tərəfdaşı Azərbaycan Texniki Universiteti (AzTU) sayılır.

G.Teymurova daha sonra TAU-da təhsil alan tələbələrin statistikasını açıqlayıb. Verilən məlumatdan aydın olub ki, 2024-2025-ci tədris ilində TAU-da 82, 2025-2026-cı tədris ilində isə 92 tələbə təhsil alır: "İki qardaş ölkənin ortaq akademik platforması olan Türkiyə-Azərbaycan Universitetində (TAU) hazırda ümumilikdə 174 tələbə oxuyur. Cari tədris ili üzrə Türkiyə-Azərbaycan Universitetinin "Kompüter mühəndisliyi" ixtisasına qəbul üzrə ən yüksək bal 674.3, "Sənaye mühəndisliyi" ixtisasında 654.4, "Qida mühəndisliyi" ixtisasında 553.6 olub.



### Məzunlara həm yerli, həm də qlobal iş imkanlarına birbaşa çıxış imkanları

Bildirilib ki, Türkiyə-Azərbaycan Universitetində təhsil dövlət hesabınadır və tədris ingiliscə həyata keçirilir. TAU tələbələrinin akademik ingilis dili bacarıqları ODTÜ-nün aparıcı mütəxəssisləri tərəfindən inkişaf etdirilir. Proqramları uğurla bitirənlərə həm Türkiyənin, həm də Azərbaycanın beynəlxalq səviyyədə tanınan diplomları təqdim olunur və bu, məzunlara həm yerli, həm də qlobal iş imkanlarına birbaşa çıxış deməkdir.

Universitetin professorları Mutlu Çalışkan tələbələrin ingilis dili bacarıqlarının inkişaf etdirilməsi ilə bağlı fəaliyyət göstərən hazırlıq kursundakı tədrisdən, Ahmet Coşar, Ömer Faruk Beyca ali təhsil müəssisəsində aparılan tədris prosesi və proqramlar haqqında geniş məlumat verdilər.

İnfotur iştirakçıları daha sonra TAU-da kompüter mühəndisliyi, sənaye mühəndisliyi və qida mühəndisliyi ixtisaslarında təhsil alan tələbələr üçün yaradılan şəraitlə tanış olub, həmçinin laboratoriyada tələbələrin apardıqları təcrübələri izlədilər.



### Regionda keyfiyyətli mühəndislik təhsilinin yeni ünvanı…

Beləliklə, bu gün 174 tələbənin təhsil aldığı Türkiyə-Azərbaycan Universiteti Orta Doğu Texniki, İstanbul Texniki və Hacettepe universitetlərinin proqramlarını tətbiq etməklə regionda keyfiyyətli mühəndislik təhsilinin yeni ünvanına çevrilir. Ali təhsil müəssisəsi yalnız bu günün deyil, gələcəyin tələblərinə cavab verən müasir, çevik və beynəlxalq yönümlü təhsil platforması kimi formalaşır. Bu ali təhsil ocağı yaxın illərdə regionun aparıcı mühəndislik və texnologiya mərkəzlərindən birinə çevrilərək, ölkəmiz üçün yüksəkixtisaslı kadrların yetişdirilməsində mühüm rol oynayacaq.

**Samirə KƏRİMOVA**
**Foto: Kənan QAFAROV**

# 881 nəfər "Maarifçi" olmaq üçün müsahibədə iştirak edəcək




Elm və Təhsil Nazirliyinin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun dəstəyi ilə "Rəqəmsal gələcək" şüarı ilə həyata keçirilən IV "Maarifçi" tələbə-məzun təcrübə proqramına qəbul üçün keçirilən test imtahanının nəticələri elan olunub. 2300 nəfərin iştirak etdiyi imtahanın nəticələrinə əsasən, 881 nəfər müsahibə mərhələsinə keçib. İştirakçılara nəticələr barədə məlumat SMS vasitəsilə təqdim edilib.

Müsahibə mərhələsi 7 may tarixindən etibarən "Microsoft Teams" platforması üzərindən onlayn formatda keçiriləcək.

Qeyd edək ki, 4 ay davam edəcək "Maarifçi" proqramının əsas məqsədi tələbə və yeni məzunlara praktiki təcrübə qazandırmaq, onların bilik və bacarıqlarını inkişaf etdirmək, nəzəri biliklərini real iş mühitində tətbiq etmələrinə şərait yaratmaq və peşəkar kompetensiyalarını gücləndirməkdir. Proqram çərçivəsində seçilmiş iştirakçılar Elm və Təhsil Nazirliyinin struktur bölmələri və tabeli qurumlarında, regional təhsil idarələrində, həmçinin Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində təcrübə keçmək imkanı əldə edəcəklər.

# Təhsildə inkişaf və innovasiyalar üzrə X qrant müsabiqəsinə 1026 layihə təqdim edilib




Təhsildə inkişaf və innovasiyalar üzrə X qrant müsabiqəsinə layihə təkliflərinin qəbulu başa çatıb. Müsabiqəyə ümumilikdə 1026 layihə təqdim edilib. Daxil olan layihələrin 30-u (3%) ümumi təhsil müəssisələrinin, 996-sı (97%) təhsilverənlərin fərdi layihələridir.

Cari müsabiqə iştirakçılarının 367-si (36%) ilk dəfədir ki bu prosesə qoşulub. Onlardan 10-u "Ümumi təhsil müəssisələri" kateqoriyası üzrə, 357-si "Fərdi layihələr" kateqoriyası üzrə müsabiqəyə müraciət edib. Ən çox layihə təklifi isə Bakı, Gəncə və Ağstafadan daxil olub.

Qeyd edək ki, X qrant müsabiqəsinin gedişatına dair bütün məlumatlar Elm və Təhsil Nazirliyinin rəsmi internet səhifələrində mütəmadi təqdim olunacaq.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Bakı Slavyan Universiteti

### Kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqə

## ELAN EDİR:

*Şərqi Slavyan filologiyası kafedrası üzrə - 1 yer*

Qeyd: müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər yalnız 1,4,5,6,7 və 8-ci bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər):

1. Rektorun adına ərizə;
2. Kadrlar uçotunun şəxsi vərəqəsi;
3. Tərcümeyi-hal;
4. Ali təhsil haqqında diplomun surəti;
5. Elmi dərəcə haqqında diplomun surəti;
6. Elmi ad haqqında diplomun surəti;
7. Elmi və elmi metodiki işlərin siyahısı;
8. Kafedra müdirinin müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

**Ünvan:** Bakı şəhəri, Süleyman Rüstəm küçəsi 33,
**Əlaqə nömrəsi:** (012) 599-08-70, daxili nömrə 208

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

### aşağıda adıçəkilən kafedrada vakant vəzifəni tutmaq üçün müsabiqə

## ELAN EDİR:

*Kino-televiziya sənətləri Kafedra müdiri 1yer*

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**

“AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003
**Tiraj:** 30757 **Sifariş:** 618
**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Bakı şəhər** G.Əsgərova adına məktəb lisey kompleksi 2019-cu ildə bitirmiş Əlisoy Murad Səyavuş oğluna verilmiş E-193440 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Xolmili kənd tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş İbrahimova Afaq Fazil qızına verilmiş A-536387 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** humanitar və təbiət fənləri təmayüllü məktəb-liseyi 2005-ci ildə bitirmiş Sadıqova Ruqiyyə Tahir qızına verilmiş B-143080 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 244 nömrəli tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Fərəcli Zeynəb Vüqar qızına verilmiş B-672195 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız

**Bakı şəhər** 225 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Qədirova Nigar Akif qızına verilmiş A-500779 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 95 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Nəsibov Yunis Məhəmməd oğluna verilmiş B-130084 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası** tərəfindən 1997-ci ildə Cəfərova Sevinc Haqverdi qızına verilmiş EN N-01292 nömrəli elmlər namizədi diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2023-cü ildə Hümbətov Vahid Vüqar oğluna verilmiş C-199414 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş Cəfərli Əhməd Vaqif oğluna verilmiş 074163 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Xanabad kənd tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Rəsulov Nicat Zaur oğluna verilmiş E-607195 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**РТУ-МИРЭА Stavropol filialı** tərəfindən 2023-cü ildə Aşurbekov Tural Vadim oğluna verilmiş 107040428135 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 68 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Bayramov Elçin Hafiz oğluna verilmiş B-330748 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Hacıyev Malik Həmid oğluna verilmiş B-658199 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Abdullayeva Gülnar Mənsur qızına verilmiş A-664829 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəniz Balıq Sənayesi Texnikumu** (indiki Azərbaycan Dənizçilik Kolleci) tərəfindən 2008-ci ildə Ələkbərov Əhməd Sultan oğluna verilmiş BB-II-067579 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci** (indiki Azərbaycan Dənizçilik Kolleci) tərəfindən 2013-cü ildə Hacıbababəyov Vahid Vaqif oğluna verilmiş AA-030827 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Şirinbəyli kənd tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Həbibov Elman Mikayıl oğluna verilmiş B-124780 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Çomuşçu kənd tam orta ümumtəhsil məktəbi 1993-cü ildə bitirmiş Mirzəyeva (Hüseynova) Ülviyə Həsənqulu qızına verilmiş A-082125 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 310 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Cəfərli Aydın Zaur oğluna verilmiş E-873504 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 152 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş İsmayılov Heydər Nurəli oğluna verilmiş A-295701 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Zümürxan kənd tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Əsədzadə Əsəd Əlövsət oğluna verilmiş B-749489 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 9 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Maryaş Villona İosifovnaya verilmiş 522668 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Şambul kənd tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Göylərova Şəfa Murtuzəli qızına verilmiş 433553 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Təzə Alvadı kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2000-ci ildə bitirmiş Qurbanov Qulam Yusif oğluna verilmiş 436590 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Universiteti** tərəfindən 2023-cü ildə Əkbərov Ramil Azər oğluna verilmiş C-169203 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Anikina Leyla Sardar qızına verilmiş A-2980 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xocalı rayon** Meşəli kənd tam orta ümumtəhsil məktəbi (indiki Goranboy rayon) 2016-cı ildə bitirmiş Əzimova Günel Qorxmaz qızına verilmiş A-585773 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri İnstitutu** tərəfindən 1990-cı ildə Qubadov Asif Səmidəli oğluna verilmiş TB-I-090713 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2009-cu ildə Ələkbərova Billurə İlqar qızına verilmiş B-161299 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 261 nömrəli məktəb-liseyi 2008-ci ildə bitirmiş Nəcəfova Tamella Fizuli qızına verilmiş B-487279 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2015-ci ildə Fərəcli Validə Vaqif qızına verilmiş A-067911 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Göytəpə şəhər 1 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Rüstəmbəyli İlqar Qeyrət oğluna verilmiş 709613 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Uzuntəpə kənd 1 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Abdullazadə (Abdullayeva) Röyalə Cavid qızına verilmiş A-535177 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 26 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Mustafayeva Çinarə Heydərqulu qızına verilmiş A-496645 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Ulaşlı-Şıxlı kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Qaçayev İsmayıl Sabir oğluna verilmiş A-047743 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Lətifov Şamxal Mirzağa oğluna verilmiş A-535740 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2002-ci ildə Fərəcova Nəcibə Azər qızına verilmiş A-082886 nömrəli fərqlənmə bakalavr diplomu və 2004-cü ildə verilmiş MNA-014184 nömrəli fərqlənmə magistr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 300 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Yasinov Ürfan Cavanşir oğluna verilmiş A-396505 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Məmmədova (Hüseynova) Günay Qabil qızına verilmiş A-544003 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 188 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş İmaməliyev Natiq Əbülhəsən oğluna verilmiş A-271896 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Sosial İqtisad Kolleci** tərəfindən 2017-ci ildə Qəribova (Abdiyeva) Süsən Canpolad qızına verilmiş AA-097128 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 2 nömrəli məktəb-liseyi 2010-cu ildə bitirmiş Rəşidli Səxavət Etibar oğluna verilmiş B-723440 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Kərgəlan kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Heydərova (Səmədova) Lalə Xeybər qızına verilmiş B-502658 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Dəmirov Xəqani Nuhbala oğluna verilmiş A-165505 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şuşa rayon** Xankəndi şəhər 4 nömrəli tam orta məktəbi (Bakı şəhər 338 nömrəli tam orta məktəb) 2024-cü ildə bitirmiş Fətullayev Turan Həzrət oğluna verilmiş E-650585 nömrəli tam orta təhsil haqqında fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Özəl Türk Liseyi** 2009-cu ildə bitirmiş Qulusoy İlkin Hüseynqulu oğluna verilmiş B-744992 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 2 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Mənsimov Vüqar Xəqani oğluna verilmiş A-369985 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2017-ci ildə Daşdəmirov Kamil Telman oğluna verilmiş A-123256 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 179 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Hacıyev Kamal Elçin oğluna verilmiş A-398844 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Ağayev Nəcməddin Niyaməddin oğluna verilmiş E-622916 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 27 nömrəli Fizika-riyaziyyat və informatika təmayüllü məktəb-liseyi 2018-ci ildə bitirmiş Əliyev Morul Elşən oğluna verilmiş E-134085 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Vəndam qəsəbə 3 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Babalı Samir Mehram oğluna verilmiş 560762 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 159 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Qayıbova Ayşən Tarverdi qızına verilmiş A-299984 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2023-cü ildə Əbdürəhmanov Rəhman Rövşən oğluna verilmiş C-177060 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 8 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Nəzərzadə Allahyar Aslan oğluna verilmiş E-362936 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Ələkbərova (Hüseynova) Elmira Süleyman qızına verilmiş 556035 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Mollaoba kənd tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Hüseynli Surac (Asəf) Səyyad oğluna verilmiş A-047955 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Köhnə Alvadı kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Vəliyev Abbas Şəmsəddin oğluna verilmiş B-299010 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 6 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Hüseynli (Əliyeva) Ülya Elxan qızına verilmiş B-436901 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Abbasova Günel Ramiz qızına verilmiş B-190062 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2024-cü ildə Mehmet Emin Günak Fethiyə verilmiş AT-011499 nömrəli əsas (baza ali) tibb təhsili diplomu itdiyi üçün etibarsız sayılır.